*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 13 iyul 2019-cu il | № 54 (2371) | Qiyməti 30 qəpik

# "Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun görüşü olub

*İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk ilə təkbətək və geniş tərkibdə görüşü olub. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıqla bağlı geniş spektrli məsələlər, eyni zamanda regional inkişaf və təhlükəsizlik məsələləri müzakirə edilib. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.*



Bəyanatda Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası olduğunu qeyd edən ölkə Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla yeni sazişlə bağlı davam edən danışıqları müzakirə etdiklərini diqqətə çatdırıb. "Hazırda biz yaxşı tərəfdaşlıq ruhunda digər məsələlər üzərində iş aparırıq. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq prioritetləri sənədi qəbul olundu. Bu, çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur."

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskla təkbətək görüş zamanı ona Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin mövqeyi barədə məlumat verdiyini qeyd edib. "Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk Qrupunun səyləri münaqişənin ən tez zamanda həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir".

Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk bildirib ki, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. "Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi, sözün həqiqi mənasında, birləşdirən Cənub Qaz Dəhlizini unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir".

Donald Tusk bəyanatında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunub. "Regionda sabitliyə istinad edərək biz, həmçinin həll olunmamış Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüququn prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir.

Biz, ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin, eyni zamanda, sülhə və səmərəli danışıqların aparılmasına imkan verən ab-havanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır".

**"Azərbaycan Ordusu"**

# Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda beynəlxalq əhəmiyyətli mühüm görüşlərin keçirilməsindən məmnunluq ifadə olundu.

Görüşdə Azərbaycan ilə NATO arasında əməkdaşlıq, ölkəmizin Əfqanıstanda "Qətiyyətli dəstək" missiyasına töhfəsi məsələləri müzakirə edildi.

# Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya Müdafiə nazirinin birinci müavini ilə NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıda səfərdə olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Rusiya Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların mütəmadi olaraq Bakıda aparılmasının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu.

Görüşdə hərbi və hərbi-texniki sahədə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında müzakirələr aparıldı.

# Müdafiə naziri BQXK-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri ilə görüşüb

*İyulun 9-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin başçısı xanım Elena Aymone Sessera ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə Müdafiə Nazirliyi ilə BQXK arasında qarşılıqlı əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, cəbhəboyu zonada yerləşən hərbi hissələrin şəxsi heyətinin və qoşunların təmas xəttinə yaxın ərazilərdə yaşayan mülki əhalinin beynəlxalq humanitar hüquq sahəsində maarifləndirilməsi üzrə həyata keçirilən fəaliyyətlər, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 11-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçiriblər.

# Donald Tusk Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün Aİ tərəfindən dəstəkləndiyini təsdiq edib

*İspaniyada ən qədim mətbu orqan olan "La Vanguardia" qəzetində "Tusk Azərbaycanı və Ermənistanı sülh şəraitini bərpa etməyə çağırır" sərlövhəli məqalə dərc edilib.*

AZƏRTAC xəbər verir ki, məqalədə Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Bakıda Azərbaycana və Ermənistana müraciətlə iki ölkə arasında səmərəli dialoqa və Dağlıq Qarabağda münaqişənin dinc yolla tənzimlənməsinə imkan verən şərait yaratmağa çağırması qeyd olunur.

Qəzet yazır: "Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün Aİ tərəfindən dəstəkləndiyini təsdiq edən D.Tusk bildirib ki, o, münaqişə ilə bağlı gərginliyin azalmasını qiymətləndirir, lakin o, etiraf edib ki, bu yaxınlarda qoşunların təmas xəttində əsgərlərin həlak olması 28 ölkənin nümayəndələrini narahat edib".

Məqalədə bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "bu münaqişə Azərbaycanın ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında nizamlanmalıdır", status-kvo qəbuledilməzdir və Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulmasını nəzərdə tutan dəyişiklik baş verməlidir. Azərbaycanın dövlət başçısı deyib: "Azərbaycanın səyləri münaqişənin ən qısa müddətdə nizamlanmasına yönəlib". Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bir milyon insanın qaçqın vəziyyətinə düşməsinə gətirib çıxarmış münaqişənin hələ də nizamlanmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir.

Məqalədə bildirilir ki, münaqişə tərəfləri arasında müxtəlif səviyyələrdə əlaqələr fəallaşıb.

İspan qəzeti oxuculara Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verərək qeyd edir ki, Ermənistan qüvvələri Qarabağı öz nəzarəti altına alıb, Azərbaycanın geniş ərazilərini Ermənistanla birləşdirmək məqsədilə "təhlükəsizlik zolağı" adı ilə işğal edib. Yerevan israr edir ki, separatçı anklavın nümayəndələrinin danışıqlar prosesinə cəlb edilməsi zəruridir.

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı ilə görüşüb



*İyulun 10-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə işgüzar səfərdə olan NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali komandanı general Tod Voltersin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.*

General-polkovnik N.Sadıkov qonağı salamlayaraq onu yeni vəzifəyə təyin edilməsi münasibətilə təbrik edib və uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Şimali Atlantika Alyansı arasında 25 illik dayanıqlı əməkdaşlıqdan danışan Baş Qərargah rəisi bu əlaqələrin inkişaf etdiyini, Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyətini və ölkəmizin Əfqanıstandakı "Qətiyyətli Dəstək" Missiyasına verdiyi töhfəni qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirərək Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində general T.Volters Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

General T.Volters NATO-nun Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyini bildirərək Alyansın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

Qonaq səmimi qəbula və göstərilən qonaqpərvərliyə, həmçinin Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşün keçirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıblar.



# Azərbaycan və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəislərinin görüşü keçirilib

İyulun 10-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə işgüzar səfərdə olan Rusiya Federasiyası Silahlı Qüvvələrin Baş Qərargah rəisi - Müdafiə nazirinin birinci müavini ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qonaqları salamlayan general-polkovnik N.Sadıkov iki ölkə arasında əlaqələrin qurulmasında dövlət başçılarının böyük rol oynadıqlarını, əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı inam əsasında aparıldığını, bu əlaqələrin daim inkişaf etdiyini və son illərdə strateji tərəfdaşlıq səviyyəsinədək yüksəldiyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edərək hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini qeyd edib.

Sonra tərəflər hərbi, hərbi-texniki əməkdaşlığın mövcud vəziyyəti və hərbi təhsil sahəsində əlaqələrin inkişaf perspektivlərini müzakirə edib, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Sonda ordu generalı V.Gerasimov NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı ilə ikitərəfli görüşün Bakıda təşkil edilməsi və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# Donald Tusk işğalçı Ermənistanı məyus edib

Bakıya səfərindən sonra Yerevanda görüşlər keçirən Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Donald Tusk erməniləri məyus edib. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra keçirilən mətbuat konfransında Aİ rəsmisi Dağlıq Qarabağ probleminin yalnız sülh yolu ilə həll ediləcəyini vurğulayıb. Ermənistan hökumətinin başçısı isə səfərin yekunlarını şərh edərkən bu məsələyə toxunmayıb.

Eyni zamanda, səfərin yekunlarını şərh edən erməni politoloqlar Donald Tuskun bəyanatlarından məyus olduqlarını gizlətməyiblər. Siyasi şərhçi Armen Badalyan "Sputnik-Armenia" saytına müsahibəsində bildirib ki, avropalı siyasətçinin Bakıda keçirilən mətbuat konfransında Aİ-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etməsi, lakin nə orada, nə də Yerevanda "millətlərin öz müqəddəratını təyin etməsi" hüququndan danışmaması erməni ictimaiyyətində narazılıq doğurub. Donald Tuskun Aİ Şurasının Prezidenti kimi artıq öz səlahiyyətlərini başa vurması ilə özünə təsəlli verən erməni politoloq onun Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən bəyanatından sonra "dünyanın dağılmayacağını" söyləyib. Bu ədalətli mövqeyin problemə şəxsən Tuskun deyil, Aİ-nin rəsmi yanaşmasının nəticəsi olduğunu unudan Badalyan qeyri-peşəkar fikir səsləndirib: "Qarabağ münaqişəsinin nizama salınması üzrə vəzifədən gedən başçının (Donald Tusk) deyil, Aİ Şurasının yeni rəhbərliyinin nə söyləyəcəyi mühümdür". Problemə dair erməni ritorikasından istifadə edən politoloq onu da əlavə edib ki, problemin həlli ilə Aİ məşğul olmur və bu səbəbdən Donald Tuskun mövqeyi ermənilər üçün o qədər də əhəmiyyətli deyil. "Əlbəttə, Tusk təsadüfi bəyanatlarla çıxış edəcək şəxs deyil, lakin yuxarıda deyilənləri nəzərə alaraq onun sözlərinin əhəmiyyətini şişirtmək lazım deyil".

# Hərbi Akademiyada NATO-nun təhsil üzrə ekspertləri ilə görüş



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun Hərbi təhsil sisteminin inkişafına dəstək üzrə Azərbaycan-NATO birgə fəaliyyət planına uyğun olaraq Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında NATO-nun ekspert qrupu ilə xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin professor-müəllim heyəti arasında görüş keçirilib.

Tədbirdə NATO-nun ekspert qrupu tərəfindən distant təhsilinin prinsipləri, onun platformasının və təhsil modullarının yaradılmasına dair təqdimatlar verilib və praktik məşğələlər keçirilib.

# Batumidə beynəlxalq konfrans keçirilib

İyulun 11-də Batumi şəhərində Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının 10 illiyinə həsr olunmuş yüksək səviyyəli beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk, Avropa İttifaqına və "Şərq Tərəfdaşlığı"na üzv olan altı tərəfdaş ölkənin yüksək vəzifəli şəxsləri, akademik dairələrin, qeyri-hökumət təşkilatlarının və biznes sektorunun nümayəndələri iştirak ediblər.

Azərbaycanı tədbirdə Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyev, İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov təmsil ediblər. Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov və digər rəsmi şəxslər də iştirak ediblər.

# Azərbaycan Ordusunun kadr işləri üzrə heyətinin təlim-metodiki toplanışı keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə nazirinin 2019-cu il üçün təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kadr işləri üzrə heyətlərinin ötən altı ayın yekunlarına həsr olunmuş təlim-metodiki toplanışı keçirilib.

Tədbirdən əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Toplanışda çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50-ci ildönümü və müasir ordu quruculuğu sahəsində gördüyü əvəzsiz xidmətləri barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda islahatların davam etdirildiyini qeyd edən nazir müavini kadr orqanlarının ordunun mühüm xidmət sahələrindən biri olduğunu, Müdafiə naziri tərəfindən bu istiqamətə ciddi diqqət yetirildiyini və daim diqqət mərkəzində saxlanıldığını xüsusi vurğulayıb.



Şəxsi Heyət Baş İdarəsi Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov çıxış edərək 2019-cu ilin birinci yarısında kadr orqanı işçilərinin təkmilləşdirilməsi üzrə görülmüş işlər və qarşıda duran əsas tapşırıqları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

# ƏÜO-da bölük, batareya komandirləri və müavinləri ilə komandir hazırlığı toplantısı keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Orduda bölük, batareya komandirləri və müavinləri ilə komandir hazırlığı toplantısı keçirilib.*

Toplantı çərçivəsində nəzəri və praktiki məşğələlərə cəlb edilmiş zabitlərin döyüş zamanı tabelikdə olan bölmələri idarəetmə bacarıqları və ixtisas hazırlıqları yoxlanılıb.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində toplantıya yekun vurulan zaman bildirilib ki, bölük, batareya komandirləri və müavinləri real döyüş şəraitində keçirilən məşğələlərdə atıcı silahlardan, zirehli döyüş maşınlarından, raket-artilleriya sistemlərindən və silahlanmaya yeni daxil edilmiş ən müasir hərbi texnikalardan məharətlə istifadə edərək yüksək nəticə göstəriblər.



## “Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsini hər zaman diqqət mərkəzində saxlayır”

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidməti soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girov götürülməsinin beşinci ildönümü ilə bağlı açıqlama yayıb.

Bu barədə AZƏRTAC-a XİN-in mətbuat xidmətindən məlumat verilib.

Açıqlamada deyilir: Bu gün azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girovluqda saxlanılmasının beş ili tamam olur.

D.Əsgərov və Ş.Quliyev ölkəmizin Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda valideynlərinin məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb, onların yanında olan Həsən Həsənov isə qətlə yetirilib. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış oyuncaq separatçı rejim tərəfindən uydurma iddialar əsasında mülki şəxslərimiz üzərində quruma "məhkəmə" təşkil edilərək, D.Əsgərov "ömürlük", Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

Bu iki azərbaycanlı mülki şəxsin Ermənistan girovluğunda keçən hər bir günü işgəncə altında keçən növbəti bir gündür. D.Əsgərov və Ş.Quliyevin girov götürülməsindən əvvəlki və sonrakı görüntüləri onların girovluqda saxlandıqları müddətdə qeyri-insani rəftara, fiziki və mənəvi işgəncələrə məruz qaldığını açıq şəkildə sübut edir.

Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü nəticəsində ölkəmizin Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal olunub. İşğal edilmiş ərazilərdə etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı, o cümlədən D.Əsgərov və Ş.Quliyevin də ailə üzvləri öz doğma yurd-yuvalarından, mülklərindən didərgin salınıb.

# “TRT World”ün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırladığı sənədli film Hollivud Beynəlxalq Film Festivalının mükafatını qazanıb

## “Qara Bağlar, Azərbaycan və Ermənistan müharibələri” adlı sənədli film daha dörd nominasiya üzrə beynəlxalq mükafatlara namizəddir

"Qara Bağlar, Azərbaycan və Ermənistan müharibələri" (Black Orchards: Azerbaijan and Armenia's Wars) adlı sənədli film ABŞ-ın Los-Anceles şəhərində keçirilən Hollivud Beynəlxalq Qısametrajlı Film Festivalında "Ən yaxşı qısa sənədli film" mükafatına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, sənədli film daha dörd nominasiya üzrə beynəlxalq mükafatlara (Amsterdam, Los-Anceles, Nyu-York film festivallarının mükafatları da daxil olmaqla) namizəddir və bu mükafatların qazanılması şansı çox yüksəkdir.

"Ən yaxşı qısa sənədli film" mükafatının təqdim edilməsi mərasimi gələn il yanvarın 25-də Hollivudda keçiriləcək.

Qeyd edək ki, Türkiyənin ingilis dilində yayımlanan beynəlxalq xəbər kanalı - "TRT World" tərəfindən hazırlanan filmin rejissoru və prodüseri Ataxan Kərküklü (Türkiyə), ssenari müəllifi Oubai Şahbandardır (ABŞ).

Bu il fevralın 26-da efirə gedən iyirmi altı dəqiqəlik filmdə Azərbaycan həqiqətləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, səbəb və nəticələri, Xocalı soyqırımı barədə tamaşaçılara ətraflı məlumat verilir.

Çəkilişlərinin əsasən cəbhə bölgəsində aparıldığı sənədli filmdə qeyd edilir ki, 1990-cı illərin əvvəllərində Azərbaycanın çox çətin vəziyyətlə üzləşdiyi, ölkədə son ümidlərin də itirildiyi bir vaxtda Heydər Əliyev hakimiyyətə qayıtmaqla xalqın ümidini bərpa etməyi bacardı.

Filmdə Xocalı soyqırımı şahidlərinin, məcburi köçkünlərin, hərbçilərin, eləcə də rəsmi şəxslərin müsahibələrinə yer verilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin torpaqlarımızın düşmən tapdağından azad ediləcəyi ilə bağlı fikirləri də filmdə əks olunub.

Qeyd edək ki, bu sənədli filmin hazırlanması üçün "TRT World" kanalının çəkiliş heyəti dəfələrlə Azərbaycana səfər edib, cəbhə bölgəsində, Naxçıvan Muxtar Respublikasında olub. Həmçinin çəkiliş qrupu filmin hazırlanması ilə əlaqədar Amerika Birləşmiş Ştatlarında, Rusiyada olub, həmin ölkələrdə diplomatlardan, tanınmış ekspertlərdən, tarixçi alimlərdən müsahibələr götürülüb.

Xüsusilə qeyd edilməlidir ki, Dağlıq Qarabağ münaqişəsinin şahidi olmuş yeganə əcnəbi, Xocalı faciəsini gözləri ilə görən və bu barədə beynəlxalq aləmə məlumatlar yayan ilk xarici ölkə jurnalisti olan Tomas Qolts filmin çəkilişi ilə əlaqədar Azərbaycana gəlib, Bakıda, cəbhə bölgəsində onunla söhbətlər aparılıb. Tomas Qolts Azərbaycanda erməni təcavüzkarlığı, xüsusilə də Xocalı soyqırımı ilə bağlı şahidi olduğu faktları filmdə tamaşaçıların diqqətinə çatdırır.

Sənədli filmdə Azərbaycan Ordusunun qüdrətindən, xüsusilə də 2016-cı ilin Aprel döyüşlərindən, uğurlu Naxçıvan əməliyyatından ətraflı bəhs edilir.

# Ulu öndər Heydər Əliyev - müasir Azərbaycanın qurucusu

*Tarix üçün əlli il kiçik rəqəm deyil. Əlli ildə xalqın sabahları üçün olduqca böyük işlər də görülə bilər. Azərbaycanda olduğu kimi...*

Böyük tarixi şəxsiyyət Heydər Əliyev 1969-cu ilin iyulunda Azərbaycan KP MK-nın I katibi seçildikdən sonra respublikanın iqtisadiyyatında nəzərəçarpacaq irəliləyiş hiss edildi. Qısa müddətdə Azərbaycan aqrar respublikadan sənaye respublikasına çevrildi. Neçə-neçə zavod fəaliyyətə başladı. Bu sıradan Kondisionerlər zavodu, Radio zavodu, Azon zavodu və s. bu qəbildəndir. Sənayenin inkişafı həm də respublikanın ittifaq miqyasında tanınmasına, milli mədəniyyətin daha şəbəkəli səviyyədə təbliğinə şərait yarandı. Bakının ittifaq miqyasında ən iri şəhərlərdən birinə çevrilməsi də həmin illərə təsadüf edir. Bakıda metro tikintisi başa çatdı, yeni ali təhsil ocaqları fəaliyyətə başladı. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin azərbaycançılıq ideologiyasına əsaslanan siyasi kursu Azərbaycanın müttəfiq respublika kimi inkişafında önəmli rol oynadı.

Azərbaycana rəhbərlik etdiyi illərdə ulu öndər Heydər Əliyev ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin inkişafı üçün tarixi işlər gördü. Elm, ədəbiyyat, incəsənət korifeylərinin yubileyləri keçirildi, adları əbədiləşdirildi, ittifaq miqyasında təbliği mexanizmi müəyyənləşdirildi.

Dahi şəxsiyyət azərbaycanlı gənclərin ittifaqın müxtəlif şəhərlərində, Lomonosov adına Moskva Dövlət Universitetində təhsil almalarını təmin etdi ki, bu da sonradan respublikada elmin dinamik inkişafında müstəsna əhəmiyyətə malik oldu.

Ötən əsrin 70-ci illərində azərbaycanlı çağırışçıların, əsasən tikinti təmayüllü hərbi hissələrdə xidmət etməsi dahi şəxsiyyətin konkret tədbir görməsində vəsilə oldu. Yüzlərlə gənc ittifaqın müxtəlif ali hərbi məktəblərinə göndərildi ki, bu da gələcəkdə kifayət qədər təsirli nəticələrin başlanğıcı kimi dəyərləndirilməlidir.

C.Naxçıvanski adına ibtidai hərbi məktəbin yaradılması Azərbaycanın həmin dövrünə deyil, neçə onillərdən sonrakı dövrünə hesablanmışdı və zamanında olduqca gərəkli olduğu öz təsdiqini tapdı. Ulu Öndər gələcəkdə Azərbaycanın hərbçi kadrlara olacağı ehtiyacı 20-25 il əvvəl önləmişdi. İttifaq rəhbərliyi bu təhsil ocağının açılması üçün nə qədər ciddi etiraz etsə də, böyük tarixi şəxsiyyət bu etirazları dönməz məntiqiylə aradan qaldırmışdı...

Azərbaycanda milli demokratik hərəkat genişləndi. Xalqın müstəqillik mübarizəsi geniş vüsət aldı və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi... Azərbaycanın müstəqilliyi bərpa olundu...

Azərbaycanda vətəndaş qarşıdurması separatçılıq meyilləri, dövlətçiliyin itirilməsi təhlükəsi yarananda xalq ciddi təkidlə böyük tarixi şəxsiyyət Heydər Əliyevi hakimiyyətə çağırdı. Ulu Öndər xalqın israrlı dəvətini qəbul etdi, Azərbaycanın dövlət müstəqilliyinin itirilməsi təhlükəsi aradan qalxdı.

Xalqın böyük əksəriyyətinin səsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndərin olduqca gərəkli siyasətinə əsasən qısa müddətdə beynəlxalq müqavilələr imzalandı ki, bunlar da respublikanın iqtisadi inkişafına güclü təsir göstərdi. Bu inkişaf digər sahələrin də inkişafına şərait yaratdı. Ordu quruculuğuna xüsusi diqqət yetirildi. Qısa müddətdə yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin edildi, hərbi vəzifələrə peşəkar zabitlər təyin olundu. Ordunun şəxsi heyətinin döyüş hazırlığı ilə bir sırada mənəvi-psixoloji hazırlığı da yüksəldildi. Ulu Öndərin sərkərdəliyiylə Horadiz əməliyyatı bu hazırlığı yüksək səviyyədə tamamladı. Bunlar da Azərbaycan Ordusunun nizami ordu kimi formalaşmasını təmin etdi. Bu baxımdan qətiyyətlə deyə bilərik ki, ulu öndər Heydər Əliyev müasir Azərbaycanın dövlətçilik memarıdır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan kimi Heydər Əliyevin ön xətdə əsgər və zabitlərə tövsiyələri hərbi xidmətdə fərqlənənlərin bilavasitə səngərdə təltif edilməsi şəxsi heyətin mənəvi-psixoloji hazırlığında nəzərəçarpacaq yüksəliş yaratdı... Ulu Öndər fəxrlə deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu kəlam hər bir azərbaycanlının həyat amalıdır. Bu kəlam tarixin əlli ilinin nəyə istinadən yaşanıldığının göstəricisidir.



Ulu Öndər Azərbaycanın beynəlxalq imicinin formalaşmasında, dünyanın aparıcı dövlətlərinin Azərbaycanla ikitərəfli, çoxtərəfli iqtisadi müqavilələr bağlamasında müqayisəyəgəlməz siyasi dühа nümayiş etdirdi...

...Əlli il tarix üçün böyük rəqəm deyil. Görülən işlərin şəbəkəsini, miqyasını, milli-xəlqi dəyərini nəzərə alanda bu rəqəm möhtəşəmləşir. Bu baxımdan Azərbaycanın son əlli illik tarixi olduqca qüdrətli tarixdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyiylə bu tarix möhtəşəmliklə davam etdirilir; Azərbaycanın sabahları daha nurlu olacaq!..

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

## Müddətli həqiqi hərbi xidmətə çağırış davam edir

"Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin Sərəncamına müvafiq olaraq həqiqi hərbi xidmətə çağırış davam edir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) AZƏRTAC-a bildiriblər ki, təntənə ilə keçirilən yolasalma mərasimlərində çağırışçıları hərbi xidmətə qurumun yerli strukturlarının şəxsi heyəti, idarə və təşkilatların, hüquq-mühafizə orqanlarının nümayəndələri, ziyalılar, təhsil işçiləri, eləcə də ağsaqqallar, müharibə veteranları, valideynlər, gənclər və kütləvi informasiya vasitələrinin əməkdaşları yola salıblar.

Gəncə şəhər Kəpəz rayonunda keçirilən tədbirin iştirakçıları və çağırışçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, dahi şəxsiyyətin xatirəsini yad ediblər. Sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətinə dair stendlərlə tanış olublar.

Mərasimdə respublikamızın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, dövlət himni səsləndirilib.

Respublika Veteranlar Təşkilatının Gəncə şəhər şöbəsinin sədri Yusif Məmmədov, "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Kəpəz rayon filialının sədri Məmməd Rəhimov, çağırışçılara müqəddəs vəzifələrini yerinə yetirməkdə uğurlar arzulayıblar.

Tədbir hərbi orkestrin iştirak etdiyi konsert proqramı və "N" hərbi hissəsinin əsgərlərinin nümunəvi çıxışları ilə davam etdirilib.

# MTT Baş İdarəsində cari ilin ikinci rübünün yekunlarına dair toplantı keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, Maddi-Texniki Təminat (MTT) Baş İdarəsində 2019-cu ilin ikinci rübünün yekunlarına dair toplantı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda MTT Baş İdarəsinin tabeliyində olan arsenal, baza, anbar və hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyəti, qoşun xidməti və hərbi intizamın təhlili aparılıb. Müvafiq xidmətlərə cavabdeh şəxslər görülən işlərlə bağlı ətraflı məruzələrlə çıxış ediblər.

Yekunda Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-leytenant Fuad Məmmədov çıxış edərək cari ilin növbəti rübündə hərbi hissələrin silah-sursat, ərzaq, əşya və əmlak təchizatı, eləcə də şəxsi heyətin sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması ilə bağlı Müdafiə nazirinin tapşırıqlarını vəzifəli şəxslərə çatdırıb.



AZƏRBAYCAN ORDUSU

# “Milli tariximizin unudulmaz günü”

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin 14 iyul 1969-cu ildə hakimiyyətə gəlməsinin 50-ci ildönümü münasibəti ilə "N" hərbi hissəsində "Milli tariximizin unudulmaz günü" adlı tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti, Qusar rayonunun Veteranlar və Ağsaqqallar Şurasının nümayəndələri və "Sağlam ailə" Ailələrin Maarifləndirilməsinə Köməklik İctimai Birliyinin üzvləri iştirak edirdilər.*



Ulu Öndərin büstü qarşısına güllər qoyulub, xatirəsinə hörmət və ehtiram ifadə edildikdən sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbirdə iştirak edən qonaqlar şəxsi heyət qarşısında "14 iyul 1969-cu il - Azərbaycanın sosial-iqtisadi, mədəni, hərbi və siyasi inkişafının başlanğıc nöqtəsi" mövzusunda çıxışlar etdilər.

Çıxış edənlər bildirdilər ki, ümummilli lider Heydər Əliyev öz müdrik fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaratmışdır. Buna görə də Ümummilli Liderimizin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrünün hər anı siyasi təqvimimizdə aktualdır. Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü də xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə xatırlanır.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın rəhbəri seçilməsindən sonra respublikanın iqtisadi, ictimai-siyasi, mədəni tarixində yeni bir dövr başlanmışdır. Dahi şəxsiyyət neçə illərin sükunətini hərəkətə gətirmiş, milləti, milli düşüncəni oyatmış, güclü iqtisadi potensial yaratmışdır.

Ulu öndər Heydər Əliyev o dövrü belə xarakterizə edirdi: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".

1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti ilə bütün dünyada tanınan diyara çevrilmişdir. Müstəqilliyə qovuşmaq məqsədilə reallaşdırılan həmin tədbirlər nəticəsində 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdır. Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı elm və təhsil ocağına 10 mindən çox azərbaycanlı oğlan və qız təhsil almağa göndərilmişdir. Bu, Heydər Əliyev siyasi müdrikliyinin və uzaqgörənliyinin göstəricisi idi.

Sonralar həmin dövrdə həyata keçirdiyi tədbirlərdən danışan ulu öndər Heydər Əliyev demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur".

Ulu Öndər SSRİ Nazirlər Soveti qarşısında məsələ qaldıraraq, Bakıdakı bütün neftayırma müəssisələrinin tamamilə yenidən qurulmasına, bir çoxunun isə yenidən tikilməsinə nail olmuşdur. Bakıda, Naxçıvanda, Gəncədə, Mingəçevirdə, Lənkəranda, Xankəndidə bir-birinin ardınca elektronika, elektrotexnika, radiotexnika, cihazqayırma, dəzgahqayırma zavod və müəssisələri tikilib istifadəyə verilmişdir. 1970-1982-ci illərdə Azərbaycanda tikilib istifadəyə verilmiş fabrik, zavod və digər sənayeistehsal müəssisələrinin sayı əvvəlki 50 ildə tikilən müəssisələrin sayından qat-qat çox idi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycanda 52 memarlıq abidəsində bərpa işləri aparılmış, 650-dən çox tarix və mədəniyyət abidəsinin pasportu hazırlanmışdı.

Ulu öndər Heydər Əliyev ana dilinin inkişafını da xüsusi diqqət mərkəzində saxlamış, Azərbaycana fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət haqqı və milli özünüdərk gətirmişdir. Dahi rəhbər Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, konfranslarda, dövlət səviyyəsində aparılan tədbirlərdə ana dilində parlaq çıxışlar edərək özünə böyük hörmət və məhəbbət qazanmışdı. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Azərbaycan rəhbərinin təklifi ilə Konstitusiyanın 73-cü maddəsini aşağıdakı redaksiyada vermək təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Həmin dövrdə belə bir maddənin əlavə edilməsi çox böyük risk idi. O zaman Ulu Öndərə millətçi damğası vurmaq təhlükəsi yaranmışdı. Ancaq müdrik şəxsiyyət bütün bunlardan qorxmamış, ana dilinə olan məhəbbəti, milli təəssübkeşliyi hər şeyi üstələmişdi.

Ulu Öndər ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdə respublika gənclərinin bilavasitə Bakıda hərbi təhsil alması üçün o zamanlar mümkün olan bütün addımları atmışdı. İmperiya rəhbərlərinin etirazına baxmayaraq, Azərbaycanda hərbi məktəbin açılmasına nail olmuşdu. Həmin dövrdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması Azərbaycanda milli hərbçi kadrların yetişdirilməsinə çox böyük töhfə idi. 1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif respublikalarında yerləşən ən qabaqcıl ali hərbi məktəblərə və akademiyalara hərbi təhsil almağa göndərilmiş, milli kadrların hazırlanması problemi öz uğurlu həllini tapmışdır. Xüsusi vurğulamaq lazımdır ki, Ümummilli Liderimizin 70-ci illərdə başladığı hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycanın Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

1970-80-ci illərdə respublikanın ali məktəblərində 100-dən artıq yeni kafedra, 40-dan çox yeni fakültə açılmış, 100-ə qədər yeni ixtisasın hazırlığına başlanmışdı. Həmin illərdə ölkədə 6 yeni ali məktəb, 12 orta ixtisas məktəbi yaradılmışdı. Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi, səhiyyə sisteminin müasirləşdirilməsi, ölkənin yol infrastrukturunun daha da yaxşılaşdırılması, eləcə də Ulu Öndər tərəfindən reallaşdırılan bütün tədbirlər müstəqil Azərbaycan Respublikası naminə həyata keçirilirdi.

Əsası 1969-cu ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli inkişaf konsepsiyası bu gün uğurla davam etdirilir. Dövlət başçısı İlham Əliyev bu məsuliyyətli vəzifəni üzərinə götürərkən bəyan etmişdir ki, bütün fəaliyyətini Heydər Əliyev siyasəti, insana qayğı və diqqət üzərində quraraq sosialyönümlü siyasət həyata keçirəcəkdir. Görülən işlər ölkəmizi günü-gündən irəliyə doğru aparır.

Sonda "Sağlam ailə" Ailələrin Maarifləndirilməsinə Köməklik İctimai Birliyinin üzvləri hərbi hissənin bədii özfəaliyyət kollektivi ilə birlikdə konsert proqramı ilə çıxış etdilər.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində işçi görüşü keçirilib





NATO-nun Tərəfdaşlıq İdarəsinin təşkilatçılığı ilə Bakıda Əməliyyat İmkanları Konsepsiyasının Qiymətləndirmə və Rəy proqramı (ƏİK) çərçivəsində Azərbaycan Respublikasında ƏİK Məlumatlar Bazası proqram təminatının yenilənməsi üzrə işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirin əsas məqsədi ƏİK Qüvvələr Birliyinə bəyan edilmiş bölmələrin qiymətləndirilməsində istifadə olunan ƏİK Məlumat bazası proqram təminatının yenilənməsi və təkmilləşdirilməsi üzrə yeni təklifləri müzakirə olunub.

Tədbirdə 7 NATO və 6 tərəfdaş ölkə olmaqla 13 ölkədən 21 nümayəndə iştirak edib.

Qeyd edək ki, Azərbaycan 2004-cü ildən ƏİK proqramına qoşulub. Ölkəmiz hazırda ƏİK Ortaq Qüvvələr Birliyinə bir tabor, bir kəşfiyyat bölüyü, HHQ-nin Mİ-17 helikopter cütlüyü və HDQ-nin Göyərtə Qrupunu bəyan edib.

# Asudə vaxt səmərəli təşkil olunur

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının səmərəli təşkil olunduğunun şahidi olduq. Hərbi hissənin zabiti Qənbər Orucov söhbət zamanı asudə vaxtın səmərəli təşkil olunmasının əhəmiyyətindən danışaraq bildirdi ki, əsgərlərimizin asudə vaxtlarında əldə etdiyi müsbət keyfiyyətlər onların nizam-intizamına, vətənpərvərlik ruhunda tərbiyə olunmasına, dünyagörüşlərinin formalaşmasına müsbət təsir edir. "Biz əsgərlərimizin dünya görüşlərinin artırılmasına, sağlamlıqlarına, fiziki inkişaflarına xüsusi diqqət yetiririk. Onların asudə vaxtlarında hərb tariximizi öyrənmələri, bədii kitab, jurnal və qəzet oxumaları, film seyr etmələri, müxtəlif stolüstü oyunlar oynamaları, idmanla məşğul olmaları üçün hərbi hissəmizdə hər cür şərait yaradılıb. Həmçinin bayramlarda və asudə vaxtlarında onlar üçün konsert proqramı təşkil edirik.

Bədii kitab, qəzet və jurnallar oxumaqla əsgərlərimiz ruhlarını zənginləşdirir, dünya görüşlərini artırırlar. Müxtəlif bədii ədəbiyyatlar onların nitqlərini daha qüsursuz etməyə, söz bazalarını xeyli artırmağa, bədii və dolğun cümlələr qurmağa yardımçı olur. Nəticədə hərb tariximizi daha dərindən öyrənirlər. Bu da onlarda vətənpərvərlik ruhunun möhkəmlənməsinə kömək edir. Əsgərlərimiz tarixi məlumatlar öyrənməklə, rəngarəng eksponatları seyr etməklə zəngin bilgilər əldə edirlər. Bundan savayı, şəxsi heyətimizin asudə vaxtlarında fiziki hazırlıqla da məşğul olmaqları üçün şərait yaradılıb. İdman sağlamlığın rəhnidir. Müntəzəm şəkildə idmanla məşğul olmaq şəxsi heyətimizdə çox güclü xarakter formalaşdırır, iradələrini möhkəm edir, onların döyüş ruhunu və özlərinə inamını artırır. Bir sözlə, əsgərlərimizin asudə vaxtlarının düzgün və səmərəli təşkil olunması onların nizam-intizamlarına, vətənpərvərlik ruhuna bilavasitə təsir edir".



Əsgər Zəka Əliyev bildirdi ki, asudə vaxtından səmərəli istifadə edir. "Keçirilən məşğələlər nəticəsində iradəmizi, gücümüzü, savadımızı, döyüş qabiliyyətimizi yüksək səviyyəyə çatdırmışıq. Dərslər bitdikdən sonra asudə vaxtlarımızın düzgün təşkil olunmasına da yüksək diqqət ayrılır. Komandirlərimizin nəzarəti altında müxtəlif stolüstü oyunlar, idman yarışları təşkil olunur, maraqlı tarixi filmlər seyr edir, bədii kitablar oxuyuruq və bugünkü kimi konsert proqramları da təşkil olunur. Bu da bizim mənəvi-psixoloji vəziyyətimizə müsbət təsir göstərir. Belə sevgi və qayğının qarşısında isə xidmətimizi düzgün təşkil etməliyik. Çünki torpaqlarımızı işğaldan azad edib, düşmənlərimizdən qisasımızı almaq vaxtıdır".

Əsgər Nicat Məmmədov söhbət zamanı komandirləri tərəfindən onlar üçün müxtəlif viktorinaların keçirildiyini vurğuladı: "Həmçinin televizorda maraqlı konsert proqramlarını, idman yarışlarını və müxtəlif tarixi filmləri seyr edirik. Müasir ordu sıralarında xidmət etməkdən qürur duyuruq. Eyni zamanda göstərilən diqqət və qayğının qarşısında xidmətimizi düzgün təşkil edib, istənilən an torpaqlarımızı düşməndən azad etməyə hazırıq.

- Komandirlərimizin nəzarəti altında asudə vaxtımızda hərb tariximiz haqqında çoxlu bilgilər əldə edirik. Əcdadlarımızın keçdiyi şərəfli yola nəzər saldıqca, vətənpərvərlik hisslərimiz daha da güclənir. Onların keçdikləri döyüş yolu qəhrəmanlıq nümunələrilə zəngin olub. Mən də xidməti vəzifələrimin öhdəsindən layiqincə gəlməyə çalışıram. Hərbin sirlərinə komandirlərimizin köməkliyi ilə dərindən yiyələnmişəm. Səbirsizliklə Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik ki, əcdadlarımızın şanlı döyüş yolunu davam etdirib, axıdılan qanın qisasını alaq, doğma Qarabağımızı və işğala məruz qalan digər tarixi torpaqlarımızı işğaldan azad edək, - deyə əsgər Elməddin Əlizadə bildirdi.

Əsgərlər Gündüz Niftiyev, Xəyal Kərimli, Samir Musayev və digərləri də tezliklə Qarabağ torpağında üçrəngli bayrağımızın dalğalanmasını görmək arzusu ilə xidmət etdiklərini dedilər: "İnanırıq ki, Ali Baş Komandanımızın əmri ilə xalqımıza Qələbə bəxş edəcəyik, üçrəngli bayrağımız Şuşada, Xankəndidə, Laçında... dalğalanacaq!"

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Hərbi texnikalar, silahlar

# Uzaq məsafəli qanadlı SOM raketi




*Türkiyənin uzaq məsafəli SOM qanadlı raketi TÜBİTAK-SACE elmi-tədqiqat müəssisəsində hazırlanıb. Raket ilk dəfə 2011-ci il iyunun 4-də İzmir şəhərində yerləşən hərbi bazada Türkiyənin Hərbi Hava Qüvvələrinin 100 illiyinə həsr olunmuş bayram tədbirində nümayiş etdirilib. SOM qanadlı raketi uzaq məsafədə yerləşən hədəfləri məhv etmək üçün Türkiyənin ilk silahıdır. Onun məhvetmə radiusu 200 kilometr təşkil edir. Raketin hazırlanmasına 2006-cı ildə başlanıb. Onun aerodinamik boruda test sınağı başa çatdıqdan sonra ilk uçuş sınağı həyata keçirilib. Sınaq zamanı F-4E-2020 Terminator qırıcısından istifadə eilib. Raket Qara dəniz üzərində 180 kilometrə qədər uçuşu uğurla yerinə yetirib.*

SOM qanadlı raketin ümumi çəkisi 590 kiloqrama qədərdir. Onun 230 kiloqramını döyüş hissəsi təşkil edir. SOM raketi stasionar və hərəkətdə olan hədəflərə qarşı zərbə endirməyə qadirdir. Raketi hərəkətə Fransa istehsalı olan Microturbo TRI 40 turboreaktiv mühərriki gətirir. Uzaq məsafəli SOM raketi havadan, dənizdən və yerdən buraxıla bilər. Tuşlama GPS sisteminə əsasən ərazinin relyefinə uyğun olaraq aparılır. Həmçinin raketdə GPS sisteminə qarşı düşmənin yaya biləcək maneələrinin aradan qaldırılması üçün İNS sistemi də quraşdırılıb. Raket müxtəlif bucaq altında effektli zərbə endirmək üçün proqramlaşdırılmışdır. Raket Türkiyə Respublikasının Silahlı Qüvvələri üçün hazırlanıb. Raketin əsas daşıyıcıları çoxməqsədli F-35 qırıcıları olacaq.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# "Marş irəli" hərbi vətənpərvərlik düşərgəsi başa çatıb

*"İrəli" İctimai Birliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Marş irəli" layihəsi başa çatıb. Goranboy rayonunda keçirilən layihənin bağlanış mərasimində "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov və işçi heyəti, layihə iştirakçıları "N" hərbi hissəsində əllərində silah Vətənimizin keşiyində dayanaraq, hər bir qarış torpağımız üçün canlarından keçməyə hazır mərd oğullarımızla görüşüblər.*



Dövlət himninin səslənməsi ilə başlayan tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov bildirib ki, bu gün Azərbaycan siyasi-iqtisadi, həmçinin hərbi potensialına görə regionda lider ölkədir. Vətənə, xalqa, dövlətə xidmət edən gənclərin vətənpərvər ruhda formalaşmasına dəstək olmaq bizim vəzifəmizdir. Azərbaycan əsgərinin gücünə, iradəsinə isə xalqımızın inamı sonsuzdur.

Qeyd edilib ki, bu, "İrəli" İctimai Birliyinin açıq hava şəraitində keçirdiyi sayca 2-ci hərbi vətənpərvərlik düşərgəsidir. "Marş irəli" layihəsinin əsas məqsədi müharibə şəraitində yaşayan dövlətin gənclərinin vətənpərvər ruhda yetişməsinə dəstək verməkdir.

Vətənpərvərlik ruhunda böyüyən gəncliyin ərazi bütövlüyümüzün təmin olunmasına və qorunmasına özünü hər an hazır hiss etməsi layihənin qarşıya qoyduğu əsas hədəflərdəndir. Eyni zamanda, müharibə şəraitində yaşayan ölkə olaraq gənclərin Vətənə, xalqa, millətə bağlılığının artırılması, vətənpərvərlik ruhunun aşılanması, informasiya müharibəsində gənclərin yaxından iştirakının təmin olunması, onların asudə vaxtının səmərəli təşkil edilməsi ilə gənclər şəbəkəsinin inkişafına nail olmaq da layihənin qarşısına qoyduğu əsas hədəflərdən biridir.

Layihədə gender bərabərliyi qorunmaqla, respublikanın müxtəlif regionlarından müsahibə yolu ilə seçilən, yaşı 17-dən 25-ə qədər olan gənclər iştirak ediblər. Layihə çərçivəsində gənclər ekstremal şəraitdə qalaraq bir sıra sosial və idman fəaliyyətlərində yer alıb, peşəkar mütəxəssislərin iştirakı ilə müxtəlif təlim-məşq toplanışları, fiziki və əqli tapşırıqlar, ekspert və qonaqlarla görüşlər və müzakirələr təşkil edilib. Həmçinin gənclər bir sıra fiziki, psixoloji və sosial fəaliyyətlərə cəlb olunub, nizam-intizamlı, bilikli və bacarıqlı vətəndaş kimi formalaşmaq yolunda bacarıqlar əldə ediblər. Hərbi simulyasiya formatında keçirilən düşərgə gənclərə hərbi mühitin aşılanmasına, onlarda milli ruhun formalaşmasına, həmçinin fiziki və mənəvi möhkəmlənməsinə şərait yaradıb.

**AZƏRTAC**

*Könlüm şeir istəyir*

# “Göy üzü daş saxlamaz”

*80-ci illərdə şeirsevənlərin könlünə yatan, duyğularına hopan bu şeiri Ramiz Rövşən yazıb..."Qara paltarlı qadın" kimi yüksək bədii dəyərə malik şeirlər, gerçəkliklərin bədii ifadəsi olan "Süd dişinin ağrısı" kimi poemalar Ramiz Rövşən imzasını ictimaiyyətin poeziyaya münasibəti səviyyəsində sevdirdi...*

*Xalq şairi Ramiz Rövşənin bir neçə şeirini təqdim edirik...*

**"Azərbaycan Ordusu"**

## Yavaş-yavaş sevdim səni

Yavaş-yavaş sevdim səni,
Hər gün bir az da sevdim.
Ən çox bu qış sevdim səni,
Qarda, ayazda sevdim.
Gör bir nə tez isinişdik
Havalar soyuyanda.
Adamlar qalın geyinib,
Ağaclar soyunanda.
Qar altından baş qaldıran
Çiçəktək sevdim səni.
İstisinə qızındığım
Ocaqtək sevdim səni.
Hələ bu cür sevməmişdim
Ömrüm boyu heç kimi.
Səni sevdim qar üstündə
Yem axtaran quş kimi.
Qorxa-qorxa bu sübh çağı
Nə baxırsan göyə sən?
Deyirsən ki, günəş çıxıb,
Qar əriyir deyəsən…

## Qara paltarlı qadın

Kişilər bir olmur atam balası
Qorxağı var, igidi var,
Amma hər kişinin öləndən sonra
Qəbri üstdə ağlamağa
Bir qara paltarlı
gözəl bir qadına ümidi var,
Sən öləndə kim olacaq
gözlərini bağlayan?
Qardaşmı olacaq, yadmı olacaq?
Bu dunyada bəlkə sənə
ən çox ağlayan,
Ən çox ağlatdığın qadın olacaq?!
Göz yaşları yuduqca baş daşını
Qəbrində qurcalanıb, deyəcəksən:
İlahi, illər boyu ağlatdığım bu qadın
Görən necə saxlayıbdır
bu qədər göz yaşını?!
Bircə kərə nə saçını oxşamışam,
Nə gözünü silmişəm.
Gözlərimə batır indi
saçlarının hər dəni,
İllər boyu bu qadına
mən axı dərd vermişəm,
İndi görən niyə çəkir dərdimi?
Bu qadın baş daşımı
öpüb sığallamaqdansa,
Yumruğuyla döysə-döysə yaxşıdı.
Qəbrimin üstündə ağlamaqdansa,
Məni söysə yaxşıdı.
Yeri-yeri, qara paltarlı qadın,
Kiri-kiri, qara paltarlı qadın.
Bu qəbir də min qəbirdən biridir.
Baş daşımı bəsdir basdın bağrına,
Bütün mənə ağlayanlar kiridi,
Sən də kiri, qəbrim damır, ağlama...

## Güzgü

Bu güzgüyə bir vaxt qoşa baxardıq, -
bu güzgüdə yerin indi boş qalıb.
Bəlkə səndən bu güzgünün canında
dodaq qalıb, kirpik qalıb, qaş qalıb?
Göz yaşların canındadı, bəlkə də
damla-damla əriyəcək bu güzgü.
Bir gün sənin ayağınla dünyada
ayaq açıb yeriyəcək bu güzgü.
Bəlkə, səni axtaracaq, gəzəcək
milyon-milyon adamların içində.
Görən kimi tanıyacaq üzünü
ən qaranlıq axşamların içində.
Qaçacaqsan bu güzgünün əlindən,
Dönəcəksən o döngəyə, bu tinə.
Adamları, maşınları, evləri
Atacaqsan bu güzgünün cənginə.

## Gedək biz olmayan yerə

Gəl əl-ələ tutub gedək
Gedək biz olmayan yerə.
Hər dərdi unudub gedək,
Dərdimiz olmayan yerə.

Burda qoyaq özümüzü,
Bu qırışan üzümüzü
Bu köhnəlmiş sözümüzü,
Gedək söz olmayan yerə.

Bir kimsə tutmasın xəbər,
Gəl çıxıb gedək birtəhər.
Bu ev, bu küçə, bu şəhər,
Bu dəniz olmayan yerə.

...Atam oğlu, az çapala
Sən deyən çətin tapıla.
Bu Ramizi kim aparar,
Bu Ramiz olmayan yerə?!

## Ayrılıq

Yenə bu şəhərdə üz-üzə gəldik
Neyləyək, ayrıca şəhərimiz yox.
Bəlkə də, biz xoşbəxt ola bilərdik,
Bəlkə də, xoşbəxtik, xəbərimiz yox.

Aradan nə qədər il keçib görən,
Tanıya bilmədim, məni bağışla.
Mən elə bilirdim, sənsiz ölərəm,
Mən sənsiz ölmədim, məni bağışla!

"Ölmədim" deyirəm, nə bilim axı, -
Bəlkə də, mən sənsiz ölmüşəm elə,
Qəbirsiz-kəfənsiz ölmüşəm elə.

Bəlkə də, biz onda ayrılmasaydıq,
Nə mən indikiydim, nə sən indiki,
Ayrıldıq, şeytanı güldürdük onda;
Bu ilin, bu ayın, bu günündəki,
Elə bu küçənin bu tinindəki
məni də, səni də öldürdük onda.

...Sağımız-solumuz adamla dolu,
Qol-qola kişilər, qadınlar keçir.
Özündən xəbərsiz, ömründə min yol
Özünü öldürən adamlar keçir.

Keçir öz qanına batan adamlar,
Bir də ki, qan hanı?
Qan axı yoxdu.
Hamı günahkardı dünyada, amma
Dünyada heç kəsin günahı yoxdu.

Bizsiz yazılmışdı bu tale, bu baxt,
Sapanddan atılan bir cüt daşıq biz.
Bəlkə bu dünyada on-on beş il yox,
Min il bundan qabaq ayrılmışıq biz.
Halal yolumuzu dəyişib, nəsə
Çaşmışıq, bir özgə yoldan getmişik.
Bəlkə min il qabaq səhv düşüb nəsə,
Minillik bir səhvə qurban getmişik.

Dəyişib yerini bəlkə qış-bahar,
Qarışıb dünyanın şəhəri, kəndi.
Bəlkə öz bətnində ögey analar
Ögey balaları gəzdirir indi.

Ömrüm başdan-başa yalandı bəlkə,
Taleyim başqaymış doğrudan elə.
O yoldan ötən qız, anamdı bəlkə,
Bəlkə də oğlumdu bu oğlan elə.

Bu yalan ömrümdə
görən sən nəsən?
Bəlkə heç sevgilim deyilsən mənim.
Anamsan, bacımsan,
nənəmsən, nəsən?!..
Bircə Allah bilir, nəyimsən mənim.

Bizi kim addadar bu ayrılıqdan,
Çatmaz dadımıza, nə yol, nə körpü.
Ölüsən, dirisən, hər nəsən, dayan!
Dayan, heç olmasa əlindən öpüm...

Deyirsən: "Ölüyəm, ölünü öpmə..."
Əlimin içində, soyuyur əlin.
Deyirsən: "Sən allah, əlimi öpmə,
əlimdən, deyəsən, qan iyi gəlir...”

## Ölmək

Bulud kimi ölmək bir yaz yağışında.
Ümid kimi ölmək, bir qız baxışında.
Bir yel qanadında yarpaq kimi ölmək
Bir qəbir altında, torpaq kimi ölmək.

Bir gül kimi ölmək, bir güldan içində.
Bülbül kimi ölmək, bir hicran içində.
Bir səs kimi ölmək, bir kar qulağında.
Bir söz kimi ölmək, bir lal dodağında.

Gündən günə ölmək,
Dönə-dönə ölmək.
Öldükcə dirilmək,
Sonra yenə ölmək...

## Bağışla

Bir ötən sevgini unuda bilsəm,
Könlümü sevginlə ovuda bilsəm,
Bir axşam yanına, qayıda bilsəm
Bağışla, bağışla, məni bağışla…

Bağışla qapını döyə bilmirəm,
Bağışla sevirəm, deyə bilmirəm.
Özüm də bilmirəm, ah niyə bilmirəm,
Bağışla, bağışla, məni bağışla…

Bir sönən ocağın külünə yanma
Ömrümün ayına, ilinə yanma
Desəm ki, sevmirəm
gəl mənə inanma,
Bağışla, bağışla, məni bağışla…
Bağışla məni…

## Yağış yuyur, gün qurudur

Bu yerləri bu göyləri
Yağış yuyur, gün qurudur.
Bu dünyada çox şeyləri
Yağış yuyur, gün qurudur.

Gözümüzün yaşını da,
Bağrımızın başını da
Qəbrimizin daşını da
Yağış yuyur, gün qurudur.

Gələn nədi, gedən nədi?
Bələk nədi, kəfən nədi?
Bu dünya öz kefindədi
Yağış yuyur, gün qurudur.

…Ulduzların tozunu da,
Lap günəşin özünü də,
Lap yağışın özünü də
Yağış yuyur, gün qurudur.

*Ovqat*

# Yurdumuza bağlıyıq

Vətənin hər bir insanın həyatında müqəddəs yeri var. İnsan hələ kiçik yaşlarından Vətənin doğmalığını, onun təkrarolunmazlığını və ya sadəcə olaraq "Ana Vətən" kəlməsinin qəlbində yaratdığı istiliyi dərindən duyub hiss edir.

Hələ kiçik yaşlarımızdan valideynlərimizin dilindən "Vətən anadır" - kəlməsi eşidə-eşidə böyüyürük. Torpağın üstündə addımladıqca yavaş-yavaş dizlərimiz bərkiyir, qollarımıza qüvvət gəlir. Yaşa dolduqca dərk edirik ki, bu torpaqda yaşayırıqsa, bu yurdun havasını udub, suyunu içiriksə, bizə bu diyar həyat veribsə, deməli, biz bu ölkənin vətəndaşıyıq, bu torpağın övladıyıq. Bütün varlığımızla bu yurda, bu torpağa, ana Vətənimizə - Azərbaycanımıza borcluyuq.

Hər bir insan yurduna sadiq və layiq vətəndaş olmağı üçün əlindən gələni etməlidir. Biz hamımız Azərbaycanımızı işıqlı sabahlara, aydın gələcəyə qovuşdurmağa çalışmalıyıq. Yurdumuzda gözü olan düşmənləri qəlbimizdəki Vətən sevgisinin gücü, Vətən məhəbbətinin atəşi ilə yandırıb məhv etməliyik. Vətən yalnız ona görə böyük deyil ki, onun qəhrəmanlıq keçmişi, sənət və mədəniyyətlə zəngin, insanların nəcib əməlləri ilə dolu keçmişi vardır. Vətən həm də ona görə böyük və qiymətlidir ki, onda ulu babalarımızın ölməz izi var. Və bu izlər hər birimizə ana südü qədər şirin, təmizdir, ana qucağı tək isti və doğmadır.

Gənclik və yeniyetməlik illərində təhsil aldığım məktəbdə keçirilən bir çox yarışlarda, hərbi idman oyunlarında fəal iştirak edirdim. "Üfüqdə parıltı", "Şahin" və başqa hərbi vətənpərvərlik oyunları bizim fiziki hazırlığımızı gündən-günə artırırdı. İbtidai hərbi hazırlıq fənnini tədris edən müəllimdən eşitdiyim sözlər heç yadımdan çıxmır. Müəllimimiz deyirdi: "Demə Vətən mənim üçün nə edib, de ki, mən Vətən üçün nə etmişəm?" Həqiqətən, çox gözəl və dəyərli sözlərdir. Vətəni yaşadan da, onu ucaldan da, şərəfləndirən də, qoruyan da bizik. Vətən torpağı bizim üçün toxunulmazdır, müqəddəsdir.

**Mayisə ƏSƏDULLAQIZI,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü**

# Sevinc yaşı

Üç ay əvvəl də qoşa qollar oğul kürəyində belə çarpazlaşmışdı. Onda oğulun kürəyinə iki damla göz yaşı düşmüşdü. Bu iki damla çətin sezilən ana narahatlığını üstələyən sevinc yaşlarıydı. Bu göz yaşına ananın demək istədiklərini tamamlayan nöqtə deyərdim: Oğlum boya-başa çatıb, sağlamdı. Vətənə borcunu yerinə yetirməyə gedir...

"Nigaran qalmayın", - demişdi oğul. Böyük qürurla hərbi xidmətə yola düşmüşdü. Bacısına nəsə demək istəmişdi, deməmişdi...

Üç ay əvvəl də belə görüşmüşdülər. Üç ayın həsrəti olsa da, öyüd-nəsihətlə tamamlanan görüşdü bu görüş. Əsgər hərbi xidmətə gələndə anasının dediklərini də unutmayıb: "Bir anan mən, biri - Vətən" deyirdi. Anasının baxışları, "Vətəni sev ay oğul, sevə-sevə qoru Vətəni", deyirdi anası...

“Öyüd-nəsihətini unutmamışam, ay ana! - əsgərin baxışları belə deyir. Oğlun kürəyinə yenə iki damla göz yaşı düşür. Şükranlıq yaşıdı bu: "Oğlum yaxşı əsgərdi!..”

**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 527
Nüsxə 3950